Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı

ERMƏNİ TARİXİ VƏ ERMƏNİ - GÜRCÜ ZİDDİYYƏTLƏRİ. GÜRCÜLƏRİN SOYQIRIMI

Tanınmış araşdırmaçı yazar Xaqani İsmayılın "Ermənilərin müsəlmanlara, xristianlara və yəhudilərə qarşı soyqırımı" kitabı bədnam qonşumuzun bütün yalanlarını ifşa edən, onların xislətini ortaya çıxaran və bir çox tarixi faktlara işıq tutan ən mükəmməl vəsaitlərdən biridir. Müəllifin böyük zəhməti hesabına 3 dildə - Azərbaycan türkcəsi, rus və ingiliscə çap olunan kitabın, xüsusən də bütün dünyanın diqqətinin Qarabağa yönəldiyi indiki ərəfədə, geniş yayılmasına ciddi ehtiyac duyuruq. Odur ki, AMEA Tarix İnstitutunun və İnsan Hüquqları İnstitutunun rəyi və tövsiyəsi ilə nəşr olunan bu kitabın "Hürriyyət" qəzetində hissə-hissə dərcinə qərar verdik. Buyurun, oxuyun.

(Əvvəli ötən saylarımızda)

Bondo Arveladzenin yuxarıda təqdim etdiyi vahiməli olaylar hansı dönəmdə və hansı coğrafiyada baş vermişdir? -İndi isə qısa olaraq bu məsələlərə aydınlıq gətirək. Tanınmış gürcü alimləri Bondo Arveladze və Teymuraz Mibçuaninin sənədli materiallara əsaslanan araşdırmaları bu sualları hərtərəfli şəkildə cavablandırır. Gürcüstan Baş Prokurorluğunda qorunan həmin istintaq materialları Marşal Baqramyan adına erməni batalyonunun Abxaziyada gürcülərə qarşı soyqırımı törətdiyini sübuta yetirir. Yuxarıda Bondo Arveladzenin məktubundakı faktlar da istintaq sonucunda təsbit edilmişdir. O olaylarla bağlı bəzi başqa epizodları da diqqətə çatdırmaq istərdik:

Şahid Kvaratsxeliya İndiko Teodorovna (1932-ci il doğumlu; Qulripşi bölgəsi (ilçəsi), Pşavi kəndi):

"...29 sentyabr 1993-cü ildə silahlı ermənilər bizim kəndə girdilər və həmin gün gürcülərin evlərini yağmalayıb, yandırdılar. 29 sentyabrda, elə birinci gün, ermənilər bizim qonşu 41 yaşlı Kvaşlava Valerini, 70 yaşlı Gecəçkori Tsatani, Gecəçkori Tsatanin qayını, Qulripşi bölgəsinin Lata kəndindən olan 70 yaşlı Kvaratsxeliyanı, 80 yaşlı Çikovani Maşonu, Çikovani Maşonun gəlini 55 yaşlı Nanulini (onların basdırıldığı məzarlıqda doğradılar); 80 yaşlı Sxuluxiya Vladimiri; 60 yaşlı Latariya Biçikonu və onun qardaşı 55 yaşlı Latariya Givini; 65 yaşlı Samuşiya Valerini; qardaş və bacı -70 yaşlı Bebiya Ketonu və 68 yaşlı Bebiya Revazı (Suxum(i) bölgəsi, Şrom kəndi); Zemo Pşaviden olan Samuşiya Lidanı qardaşı - Samuşiya Misikonun evində öldürdülər; 70 yaşlı Çemiya Tinanı və Çemiya Lyubanı öldürdülər; 40 yaşlı Q.J. və onun 14 yaşlı qızı L.Ş. , 13 yaşlı qızı L.Ş. ermənilər və çeçenlər tərəfindən zorlanmış, sonra isə Samuşiya Mogelinin ailəsində öldürülmüşlər. 29 sentyabrda bu ailədəcə 15 nəfər öldürülmüşdü- 55 yaşlı Vladimir Samuşiya, onun bacısı 65 yaşlı Samuşiya, 38 yaşlı Leyla Samuşiya, 67 yaşlı Samuşiya Xuta və onun arvadı 60 yaşlı Samuşiya Raya. Bu ailədə soyadları bilmədiyim, Suxum(i)dən olan iki qadın da öldürülmüşdü. Şoniya Joranın ailəsində Qulripşi ilçəsinin Magəra kəndindən olan iki nəfər-80 yaşlı ərlə onun 70 yaşlı arvadını öldürmüşdülər. Kardava Şotani isə o həyətində öldürdülər. Onun 80 yaşlı, oğlunnsa 50 yaşı vardı, Dans niya Ta-

ras 80 yaşında. Kvaratsxeliya 65 yaşında, Çxetiani Qedevan da 65 yaşında idi. Çxetiani Qedevanın ailəsin də 60-65 yaşlarında olan, Suxum(i) bölgəsinin Odişi kəndindən gəlmiş şəxs və Drandadan gəlmiş üçü birgə, bir də tək olan şəxslər də öldürülmüşdü. Mən onların soyadlarını yada sala bilmirəm. Samuşiya Appolon 70 yaşında, onun arvadı Samuşiya Eter 65 yaşında idi. İsmayılova İza isə 60 yaşındaydı - azərbaycanlıydı. Mən Abxaziyadan gələndə arvadım Kvaratsxeliya Gülnara Erminovna və qızım Kvaratsxeliya Marina (1962-ci il doğumlu; hansı kı, 20 sentyabrda Babuşer hava limanında bombardman zamanı yaralanmışdı), Psavide (evdə) qalmışdılar. 1995-ci ildə mənim arvadım (17 saylı-yazılı qaynaqda düzəliş xətası var - X.İ.) Pşavi kəndindən gəldi və bildirdi ki, qonşu erməni Kabasakalyan Albert Ervandoviç bizim qızımızı öldürdü".

Şahid Kvaratsxeliya Gülnara Ermilovna (1939-cu il doğumlu; Qulripşi bolgesi, Merxeuli kəndi):

"...18 may 1995-ci ildə gecə saat 2-də bizim qonşu erməni Kabasakalyan Albert Ervandoviç mənim qızım,1962-ci il doğumlu Kvaratsxeliya Marina Gendikoyevnanı güllələdi Kabasakalyan abxaz Axsilba Ucuşun evinə gəlmişdi, hansı ki, biz də onun evindəydik. Kabasakalyan mənim arımi güllələdi. Onunla yanaşı iki erməni də var idi, ancaq qaranlıq olduğu üçün mən onları təsvir edə bilmərəm. Ev yiyəsi onların dalınca qaçdı. Növbəti gün o, bildirdi ki ölüm hadisəsi haqda polisə bilgi verib. Ancaq prokurorluqdan heç kəs gəlmədi. Axsilba mənə qızımı basdırmaqda kömək etdi. Üçüncü gün o, məsləhət bildi ki, Abxaziyadan gedim, çünki ermənilər məni də öldürə bilərlər. Ona görə də mən mayın 25-də Abxaziyadan çıxdım.".

Şahid Kvartsxava Qvadi Cemalovic (1967-ci il doğumlu; Qulripşi bölgəsi, Merxeuli kəndi):

"...Mən çoxlu ölüm və talan faktları bilirəm, hansı ki onları Labri kolxozunun sədri Avelyan Ardaş Arutyunoviçin başçılığı ilə ermənilər törətmişdir. Avelyanın göstərişi ilə ermənilər 70-ə qədər gürcünü mənim babam Kvaratsxeliya Borisin evinə toplamışdılar ki, guya Zuqdidiyə köçürəcəklər. Camaat da ora əşyaları ilə toplaşmışdı. Ancaq ermənilər onların əşyalarını ellərindən aldılar, adını-soyadını bilmədiyim 16 yaşlı gürcü qızını isə 6 nəfər erməni zorladı. Bu qızı bir rus qadın müdafiə etdi. Ancaq ermənilər o rus qadını öldürdülər. Qrup Avelyan Ardaş tərəfindən göndərilmişdi. Mən həmçinin bilirəm ki, ermənilər Çxetiani Qedevanı, Kvaratsxeliya Şalikonu, Kvaratsxeliya Kikini və Suxumdan olan 50 yaşlı bir nəfəri də öldürdülər. Mən onu da bilirəm ki, ata-oğul Darsaliya Kukuri və Tarası da öldürdülər. Onları öz evlərində öldürdükdən sonra evi yandırdılar. Bundan başqa, 14 oktyabrda Myasnikov kəndindən olan Giorqadzeni erməni məktəbinin yanında öldürdülər. Ermənilər dedilər ki, Giorqadze abxazlara qarşı mübarizə aparırdı. Merxeuli kəndindəki gürcü evlərini abxazlar, Pşavi kəndindəkilərsə ermənilər yandırırdı.

Şahid Siçinava Eter Aleksandrovna (1942-ci il doğumlu; Qulripşi bölgəsi, Pşavi kəndi):

"...Adını yada sala bilmədiyim 7-ci sinif şagirdini öz evlərinin balkonundaca güllələdilər. Y.J. və onun 7-ci sinif şagirdi olan bacısını güllələməmişdən qabaq zorladılar. Qatil və zorlayanlar Ocəmçir bölgəsinin Labri kəndindən olan ermənilər idi. Onlara bizimlə üzbəüz qonşuluqda yaşayan ermənilər də kömək edirdilər, onların soyadı Qasparyan idi...

Abxazlar bizə gəlmişdilər, söhbət əsnasında aydın oldu ki, onlarla qohumluq əlaqələrimiz var imiş, ona görə də bizə qarşı heç bir hadisə törətməzdilər... Abxazların sırasında o vaxt bir erməni vardı, abxazların bizə mehribancasına yanaşması faktı onun xoşuna gəlmədi və inciyərək həmin gün onların dəstəsindən ayrıldı. Həmin erməni növbəti gün bir neçə nəfərdən ibarət erməni qatillərini özbyle gətirdi və onlar da bizimkiləri pulemyotla öldürdülər".

Şahid Samuşiya Domenti Ioseboviç (1931-ci il doğumlu; Qulripşi bölgəsi, Pşavi kəndi):

"...30 sentyabr 1993-cü ildə silahlı ermənilər bizim kəndə girdilər, gürcüləri və onların ailələrini soydular, sonra da evlərini yandırdılar. Onlar daxil olan kimi 1930-cu il doğumlu Samuşiya Valerianı, Suxum bölgəsinin Şrom kəndindən gəlmiş 55 yaşlı Qadeliya Yunini, 75 yaşlı Zarandiya Çuçanı, 50 yaşlı Samuşiya Volodyanı, onun bacısı 65 yaşlı Samuşiya Lenanı, 65 yaşlı Samuşiya Xutanı, 30 yaşlı Samuşiya Lamaranı, onun bacısı 32 yaşlı Samuşiya Leylanı, 70 yaşlı Çemiya Tinanı... (şahid bundan sonra daha 33 nəfər öldürülmüş şəxsin adını çəkir: 32 gürcü, 1 nəfəri yunan qadın. Bu şəxslərin sırasında 45 yaşlı Tsutsumiya Murman və onun 8-9 yaşlarında oğlu da vardır -X.İ.) öldürdülər. Onların çoxu tabutsuz şəkildə həyətlərindəcə basdırılıblar. Bir çoxları isə öz evlərindəcə yandırılıblar. Məsələn, Darsaliya Kukuri və onun atası, Muşni Şeliya, Valeri Abşilava və onunla birgə iki nəfər -ancaq onları tanımırdım.

Bizim kənddə 50 ev vardı. Ancaq indi hamısı yandırılıb...

Ermənilər bizdən hər şeyimizi aldılar, kimdə nə vardısa. Bütün genc qadınları zorladılar. Bütün qadınları lüt soyundurdular və onlarda qızıl əşyalar axtardılar. Zorladıqları genc qadınların adlarını çəkmək istəmirəm -bu alçaldıcıdır...".

Şahid Rexviaşvili Venera Aleksandrovna (1934-cü il doğumlu; Qaqra şəhəri, Vaja Pşavela, № 151):

"Abxaz bölücülərinə çeçenlər, ermənilər və b. hər cür kömək edirdilər. Gürcüləri Qaqra stadionuna qovdular və orada onlara hər cür işgəncə verdilər, başlarını kəsdilər, sonra isə bu insan kəlləsi ilə futbol oynadılar".

Şahid Belousova Nata Mixaylovna (1949-cu il doğumlu; Qulripşi bölgəsi, Dranda kəndi):

"20 sentyabr 1993-cü ildə ermənilər, kazaklar, abxazlar Axaldoba kəndinə girdilər və qışqırdılar ki, hamı küçəyə çıxsın. Xalq -qadınlar və yaşaqlar əşiyə çıxdılar. Onları stadiona qovdular. 10 və 14 yaşındakı uşaqları zorladılar və sonra öldürdülər!!!".

Şahid Kobaliya Lyuda Şalvovna (1957-ci il doğumlu; Qulripşi bölgəsi):

"Ermənilər abxazlardan pis idilər. Bizimlə savaşmaq meqsədilə öz batalyonlarını yaratdılar. Bütünlükdə bizim kəndi yandırdılar, mənim evimi də həmçinin".

Şahid Dolidze Teymuraz Şalvoviç (1955-ci il doğumlu; Qulripşi bölgəsi, Dranda kəndi):

"Dranda kəndində bütün gürcülərin evləri yandırıldı... Məndə olan bilgiyə görə,bütün hərbi əməliyyatlarda Topalyanın əsasını qoyduğu Baqramyan adına batalyon fəal iştirak edirdi. Topalyan yaşayış yerlərini və qonşuları yaxşı tanıyırdı".

Şahid Qulua Avtandil Mamantoviç (1928-ci il doğumlu; Pşavi kəndi):

"Ermənilərə təkqollu, avtomat silahlı, yaxasından iri gümüş xaç asılmış cavan bir şəxs başçılıq edirdi... Bezilərinin şapqalarında yazılmışdı: "İ.X.Baqramyan adına batalyon".

Şahid Kvaratsxeliya Lindqar Nikolayeviç (1937-ci il doğumlu; Qulripşi bölgəsi, Qanaxleba kəndi):

"Daha çox ermənilər fəallıq edirdilər. Onların içərisində bizim kəndin ermənilərı də var idi, hansı ki, gürcüləri öldürür və zorlayırdılar".

Şahid Naçkebiya Nari Şardenovna (1964-cü il doğumlu; Qulripşi bölgəsi, Zemo Pşavi kəndi):

"...Ermənilər daha qaddarlıqları ilə seçilirdilər... Ermənilər Yuxarı Pşaviyə Labri kəndindən girdilər. Onlar tərəfindən Zemo Pşavi kəndinin çox sayda günahsız sakini öldürüldü...".

Şahid Kvaratsxeliya Tsiala Mamontovna (Qulripşi bölgəsi, Merxeuli kəndi):

"...Mənim atamın əmisi oğlu Kvaratsxeliya Vaja Aleksandroviçi biz çıxdıqdan sonra ermənilər öz evində yandırdılar".

Şahid Çitaya Gülnara Nikolozovna (Qulripşi bölgəsi, Maçara kəndi):

"... bu kəndə yaşayan Ohanyan İsak (erməni millətindən olan -X.İ.) gürcülərə sığınacaq verirdi. Bundan xəbər tutan Qudaut ermənileri Ohanyanı da öldürdülər".

Şahid Torçinava Zaira Apolonovna (1952-ci il doğumlu; Qulripşi bölgəsi, Maçara kəndi):

"...Erməni yaraqlılarından biri 1 oktyabr 1993-cü ildə mənim nənəm Şengeliya Yekaterina Sisoyevnanı (1909-cu il doğumlu) öldürdü.

26 oktyabr 1993-cü ildə erməni silahlıları tərəfindən Samuşiya Apolon Andreyeviç (1926-cı il doğumlu) və Samuşiya Eteri Abramovna (1984-cü il doğumlu) da öldürdülər".

Şahid Vekua Melitон Andreyeviç (1930-cu il doğumlu; Qulripşi bölgəsi, Merxeuli kəndi):

"...29 sentyabr 1993-cü il səhər vaxtı saat 10.00-da silahlıları soxuldular. Əsasən bu silahlılar ermənilərdən ibarət idilər. Onlar özlərini Baqramyan adına batalyonun əsgərləri adlandırırdılar. Bunu isə onların təqdim etdiyi müvafiq şəxsiyyət vəsiqəsi təsdiq edirdi. Kəndi dağıtdılar, gürcülərin evlərini yandırdılar ".

Şahid Şengeliya-Şoniya Gülnazi Baqratovna (1951-ci il doğumlu; Qulripşi bölgəsi, Dranda kəndi):

"...Ma...nım bacılarımı aparıb zorlayanları tanıya bilərəm. Onlar erməni millətindən olan silahlılar idi".

Şahid Daneliya Lili Zauryevna (1979-cu il doğumlu; Qulripşi bölgəsi, Dranda kəndi):

"...anam mənə bildirdi ki, 2 oktyabr 1993-cü ildə bir erməni atamı bizim evdəcə öldürüb. Və anam atamı həyətimizdə basdırıb...".

Sayı-hesabı bilinməyən yuxarıdakı qəbildən olan hadisələr Suxum şəhərini və Suxum və Qali bölgələrini də əhatə etmişdir. Bu olayların "qəhrəmanları"nın -Baqramyan adına batalyon üzvlərinin də tam olmayan siyahısı belli olmuşdur...

1918-ci ildə İstanbulda "Böyük Ermənistan"ın bir fantastik xəritəsi nəşr olunmuşdu. Guya tarixi xəritə idi. O xəritədə "Böyük Ermənistan"ın sınırları Qara dənizdən Xəzər dənizinədək (Batum, Axalsix, Msxeta, Tiflis də daxil olmaqla), Samsundan Araliq denizine və Selevkiyanın quzey hissəsinədək çox böyük əraziləri əhatə edir. Həmin xəritədə Gürcüstana ensiz bir nahiyə ayrılmışdı. Göründüyü kimi, Baqramyan adına erməni batalyonunun (yəni gəlmişlərin, bu, aslında diviziya idi, 2000-dək üzvü vardı) gürcülərin soyqırımına uğratmağa və etnik "təmizləməyə" yönələn fəaliyyəti "gələcək" "Böyük Ermənistan"ın ərazi parçalarını hazırlamaq meqsədindənmi qaynaqlanırdı?!.. -Təəssüf ki, bəli: 27 sentyabr 1993-cü il tarixində və gürcü qadınlarına, uşaqlarına qarşı həyəgercəsine qırğın törətdikdən başqa günlərdə yaraqlı ermənilər qışqıraraq deyirmişlər: "Abxaziya sizin idi, indi oldu bizim -Abxaziya kiçik Ermənistandır, Böyük Ermənistanın qərb sahilləridir.". Əlbəttə, Bondo Arveladzenin timsalında gürcü ziyalıları o hadisələr zamanı susmamış, hətta o dönəmdə Ermənistan Prezidenti vəzifəsini daşımış Robert Koçaryana və bütün ermənilərin katolikosu İkinci Qareginə məktubla müraciət edərək onların Ermənistan və erməni xalqı adından gürcü xalqından rəsmən üzr istəməsini tələb etmişlər.

(Ardı var)